**SEVDA İSMAYILOVA**
*Bakı Dövlət Universiteti Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası*

# N.B.VƏZİROVUN YARADICILIĞINDA KAPİTALİST MÜNASİBƏTLƏRİNİN TƏŞƏKKÜLÜ İLƏ ŞİMALİ AZƏRBAYCAN İQTİSADİYYATINDA YARANMIŞ YENİ XÜSUSİYYƏTLƏRİN BƏDİİ İNİKAŞI

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı nəticəsində onun metropoliyanın iqtisadi münasibətlər sisteminə daxil olması bölgənin inkişafında bir sıra yeni xüsusiyyətlərin yaranmasına və bir sıra dəyişikliklərin baş verməsinə gətirib çıxartmışdı.

Yeni kapitalist münasibətlərinin təşəkkülü qaz vurub qazan doldurmaq istəyən işbaz adamları hərəkətə gətirmişdi. Belə şəxslər pul qazanmaq üçün iqtisadi həyatın müxtəlif sahələri ilə məşğul olurdular. Nəcəf bəy Vəzirovun 1895-ci ildə yazdığı «Yağışdan çıxdıq yağmura düşdük» adlı əsərində barama işi ilə məşğul olan tacir Hacı Salmanın Qara dəniz vasitəsilə satmaq üçün göndərdiyi baramanın dəryaya qərq olmasından və bu kampaniyaya şəriklik edən Hacı Qəmbərin ziyana düşdüyü üçün başına hava gəlməsindən bəhs edilmişdir. Tarixdən məlumdur ki, Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra çar hökuməti burada ipəkçiliyin inkişafına xüsusi diqqət yetirirdi. Azərbaycan ipəyi həm rus, həm də bir sıra Avropa ölkələrinin toxuculuq sənayesi üçün əsas xammal rolunu oynayırdı. 70-ci illərdən başlayaraq Şimali Azərbaycanda hər il 200-250 min pud arasında barama istehsal olunurdu (1,180). 1850-1860-cı illərdə Şimali Azərbaycanın Şəki, Şuşa, Şamaxı, Quba və Lənkəran qəzalarında yetişdirilən barama məhsulunun çəkisi beş dəfə artaraq 151 min puda çatmışdı. Həmin məhsulun 62 min pudu və ya 41 faizi Nuxa qəzasında yetişdirilmişdi. Azərbaycan xam ipəyinin 71 faizi Rusiyanın mərkəzi quberniyalarına aparılırdı. 1847-ci ildə Azərbaycandan xaricə demək olar ki, ipək aparılmadığı halda, 1864-cü ildə xarici ölkələrə 2,2 milyon manat dəyərində xam ipək satılmışdı (2,709). XIX əsrin 60-cı illərində Azərbaycan xam ipəyinə xarici ipək şirkətlərinin marağı olduqca yüksək idi.Bu şirkətlərin agentləri sağlam barama toxumunu buradan alaraq xaricə göndərirdilər. Maraqlıdır ki, təkcə Nuxada 200-dən çox belə ağent fəaliyyət göstərirdi.

XIX əsrin ikinci yarısında Azərbaycanın kapitalistcəsinə inkişaf etməkdə olan qabaqcıl sahələrinin birində-ipəkçilikdə də digər sahələrdə olduğu kimi çoxlu tacir, möhtəkir, sövdəgər, sələmçi və alverçi qazanc məqsədilə əl-qol açaraq geniş fəaliyyət göstərirdilər (1,178-181). Bu tarixi gerçəikliyin bəzi tərəfləri və aspektləri N.Vəzirovun yuxarıda haqqında danışdığımız «Yağışdan çıxdıq yağmura düşdük» komediyasında bədii şəkildə təsvir olunmuşdur. Əsərdə Hacı Qəmbərin qızı Cəvahir xanımın dilindən deyilir: «Hacı Salmanı tanıyırsanmı? Evi yıxılmış, biçarə atamı tovlayıb, var-yoxunu əlindən alıb, verib baramaya, indi deyirlər ki, Qara dəryada gəmi qərq olub, tamam barama batıb... Atam bu əhvalatı eşidən kimi, başına hava gəlib, olub dəli, evdən qaçıb» (8,74).

Əsərin məzmunundan məlum olur ki, Hacı Qəmbərin ömrü boyu topladığı ticarət kapitalı hesabına satın alınmış barama Batum limanından gəmi ilə yola salınmış və orada 90 min manata sığorta olunmuşdu (8,80). Bu fakt XIX əsrin ikinci yarısında ticarət əməliyyatlarında sığorta sisteminin tətbiqini göstərir. XIX əsrin sonlarında Azərbaycanda ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesi xeyli sürətlənmiş, inhisarçı ticarət meydana gəlib inkişaf etməyə başlamışdı. Bu dövrdə bank, maliyyə müəssisələri, səhmdar cəmiyyətlərlə yanaşı (3,251-253;9,6-9) sığorta şirkətləri də yaranıb inkişaf edirdi. Azərbaycanda bu dövrdə fəaliyyət göstərən əsas sığorta şirkətləri

xarici ölkələrinn sığorta şirkətlərinin Azərbaycandakı filialları olmuşdur (6,23). Sığrta əməliyyatları sırf kapitalist münasibətlərindən irəli gələn məsələ idi.

Ticarət, xüsusilə xarici ticarət xeyli genişlənmişdi. İri ticarət Qara dəniz limanları vasitəsilə xarici ölkələrə Azərbaycandan barama, yun, pambıq, tütün və başqa məhsulları ixrac edirdilər (1,260-261). Böyük partiyalarla mal göndərilməsi böyük risk tələb edirdi. Azərbaycan tacirləri dəniz nəqliyyatı vasitələri ilə göndərdikləri yükləri hər cür qəza və təbii fəlakətin gətirəcəyi ziyandan qorumaq üçün sığorta xidmətindən istifadə etməyə başlamışdılar. N.B.Vəzirovun «Yağışdan çıxdıq yağmura düşdük» əsərində göstərildiyi kimi, Qara dəryada qərq olan barama 90 min manata sığortalandığı üçün Hacı Salman həmin pulu sığorta şirkətlərindən alaraq yarısını-45 min manatı Hacı Qəmbərə təhvil vermişdi (8,87-88).

Rusiya hökümətinin neft mədənləri haqqında 1872-ci il 1 fevral fərmanı ilə rus təbələrinə və xarici vətəndaşlara Abşeronda neftli torpaq almaq hüququ verilmişdi. Həmin fərmanın 4-cü bəndinə görə Abşerondakı kəndlərin sakinləri istifadələrində olan torpaqlardan neft çıxartmaq, hətta bu torpaqları icarəyə vermək hüquq qazanmışdılar. Abşerondakı neftli torpaqların bir desyatini üçün 10 rubl qiymət qoyulmuşdusa, 1896-cı ildə bu rəqəm on dəfə artaraq 100 rubla qaldırılmışdı (7,18-19). Neft sənaye sahibləri müxtəlif fırıldaqlardan istifadə edərək kəndlilərin torpaqlarını ucuz qiymətə onların əllərindən alırdılar. Bakı bəyləri öz mənafelərini güdərək onlara kömək edir, kəndlilərin savadsızlığından istifadə edərək fırıldaq, saxtakarlıq, hakimləri satın almaq yolu ilə saxta şəhadətnamələr düzəldərək Sabunçu, Ramana, Bibiheybət və s. kəndlərin kəndlilərinin istifadəsində olan xəzinə torpaqlarını öz mülkiyyətləri elan edirdilər Bakı quberniyasının dövlət əmlakları idarəsinin məmuru 1890-cı ildə öz rəisinə yazırdı ki, «Ramana kəndinin neft verən torpaqları hissəsində kəndlilərin pay torpaqlarının kiçicik bir parçasını da tapmaq olmaz ki, həmin yerə qəsbkar öz hüququnu elan etməsin»(4,76). Bakıda və Abşeronda bir qrup işbaz adam isə neftli torpaqların alqı-satqısı işinə girişərək bundan böyük qazanc əldə etməyə çalışırdı. Maraqlıdır ki, bu tarixi gerçəklik də N.Vəzirovun diqqətindən kənarda qalmamışdı. Belə ki, onun 1900-cu ildə yazdığı «Pəhləvanani-zəmanə» adlı dram əsəri XIX əsrin son rübündə çarizmin Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasəti öyrənmək üçün orijinal bir mənbədir. O, əsərdə neftli və neftsiz torpaqların, mülk və evlərin alqı-satqısından böyük gəlirlər əldə edən, bu işdə hər cür yalan və fırıqdaq işlətməkdən çəkinməyən vasitəçilər və işbazlar dəstəsini real həyatdan götürülmüş faktlar əsasında təsvir etmişdir. Belə əməllər hesabına varlanaraq cah-cəlal və sərvət sahibi olan, özü demiş, firənglər və ingilislərin Azərbaycanda sahibkarlıqla məşğul olmasına daralan Aslan bəyin yeni iqtisadi şəraitin qulduru olan işbaz dəstəsi Paşa adlı 90 yaşlı bir yazıq qocadan 200 min manata dəyən neftli yerini aldadıb 100 dəfə ucuz, 2000 manata alaraq heç həmin cüzi məbləği də ona tam halda verməmişdilər (8, 138-139). Aslan bəy və onun dəstəsi tək deyildi. Kapitalist istehsalının mövcudluğu şəraitində müxtəlif maliyyə, birja sövdələşmələri ilə məşğul olan yeni bir çoxmillətli tüfeyli təbəqəsi formalaşmışdı. Aslan bəyin dilindən verilən parçaya diqqət yetirək: « Hər yerdə milyonlardan söhbət gedir: əlbəttə başqa nədən-Podlezski işi başqasına güzəştə getdiyinə görə 75 min manat dəbbələmə pulu almışdır. İki gündə barmağını barmağına toxundurmadan, bir qəpik də pul xərcləmədən 75 min qazanmaq zarafat deyildir!

Petya Niryayev də həmçinin. Dilxorluq ondadır ki, Mikurtum Kaspariç (yəqin ki, ermənidir-İ.S) özünün çox da böyük olmayan işini (sövdələşməni-İ.S) ½ milyona satmışdır.(8,140). Göründüyü kimi yeni burjua istehsal üsulu yeni neftli və neftsiz torpaqları, alına və satıla bilən hər şeyi bazarlıq etmişdir. Sövdələşmə və birja əməliyyatları quran fırıldaqçı şəxslər at oynadırlar. N.Vəzirov əsərdə göstərdiyi kimi, Aslan bəy Qur-

ban adlı birr qocaya 500 desyatin sahəsi olan torpağını satmağı məsləhət görür. Qurbanın dili ilə deyilsə, bu yerdə «bir az qazırsan, torpaqdan neft iyi gəlir, ovcuna alıb sıxırsan, neft damcılayır». Əsərdən göründüyü kimi qocaya 100 manat cib xərci verən Aslan bəy onu aldadaraq torpağını ələ keçirmək istəyir.

Neftli torpaqların alış-verişindən böyük qazanc götürən Aslan bəy və onun kimilər Azərbaycan burjuaziyasının tüfeyli və quldur hissəsini təmsil edirdilər. Mavritan qəsrləri tikdirib orada ağa, orta əsrlərin feodalları kimi cəh-cəlallı həyat arzusundadır. Yeni iqtisadi münasibətlərin yaratdığı şəraitdən bacarıqla istifadə edən bu zümrənin nümayəndələri düşüncə tərzinə görə köhnə feodal münasibətlərinin daşıyıcısı kimi çıxış edirdilər. Məhz bu baxımdan yeni tarixi və iqtisadi şəraitdə belələri milli sahibkarlar təbəqəsinə, mütərəqqi, vətənpərvər və millətpərəst burjuaziyaya çevrilə bilmədilər. «Pəhləvanani-zəmanə»dəki Aslan bəy özü demiş:- «Birjevaya iqra» bəlasına düçar etdiyi İmanqulu bəyin 20 desyatin sahəsi olan torpağını-hər desyatını 200 manata alıb, hər desyatini 2 min manata yəhudiyə satıb, 10 gün ərzində 34 min manat pul qazanıb və yaxud Qurban adlı bir şəxsin torpağını əlindən «birja oyunu», əslində qulaqkəsmə əməliyyatı vasitəsilə olaraq 200-300 min manat əvəzinə 2 min manat verməyə boyun olublar. Əslində heç onu da ödəməyiblər.

1873-cü ildə Balaxanıda «Xələfi» şirkətinin neftli torpaqlarının birində güclü fontan vurmaşından sonra neft verən yerlərin icarəsi və satını ilə məşğul olan şirkətlərin sayı artırdı. Abşeronun kənd icmalarına ictimai torpaqları neft çıxarılması üçün icarəyə vermək qadağan olunmuşdu. Buna baxmayaraq hökumət Abşeron yarımadasındakı dövlətə məxsus torpaqlarda neft kəşfiyyat-axtarış işlərinə icazə vermişdi. Ayrı-ayrı xüsusi şəxslər, varlı adamlar yeni əlverişli iqtisadi-hüquqi şəraitdən istifadə edərək məhkəmə məmurlarına rüşvət verməklə neftli torpaqlar üzərində guya əvvəlki mülkiyyət hüquqlarını bərpa edirdilər.(1, 216-217). Belə qeyri-qanuni üsullarla var-dövlət, sərvət və mülk sahibi alanların tipik nümayəndəsi Aslan bəy, «Pəhləvanani-zəmanə»də göstərildiyi kimi, qurduğu oyunlara, girdiyi sövdələşmələrə bir fənd kimi, «birjavaya iqra» kimi baxırdı. «Neft bumundan» sonra Bakıda Aslan bəy kimilərinin sayı çoxalmışdı və bir qrupp fırıldaqçı işbaz qəpik-quruş qazanmaq üçün onların ətrafında fır-fır fırlanır və cinayətlərinə şəriklik edirdilər. Neftli və neftsiz torpaqları onları, mülk sahiblərini tora salıb mal-mülklərini əllərindən alırdılar. Belə işbaz sahibkarların ətrafında varlı və imkanlı müştərilər də az deyildi. «Pəhləvanani-zəmanə»dəki Aslan bəy elə bir sistem qurmuşdu ki, bütün variantlar uduşlu idi. Neftli torpağı və yaxud quruca bir torpağı alanda da qazanırdı, satanda da, hətta satmayanda da, qazanırdı.

Göründüyü kimi, bu işbazlar neft olmayan ümüdsüz yerləri neftli torpaqlar adı ilə müştərilərə paylayırdılar. Belə ümüdsüz torpaqdan bir desyatini üç yüz manata daha iyirmi desyatin almaq istəyən Aslan bəy həmin torpaq üçün müştəri tapıb fikrində gəlirini hesablayır: Dünən «Zülmət şahlığı» cəmiyyətinin nümayəndəsi çox hörmətli Moisey İzrailoviç sadəcə olaraq mənə yalvararaq həmin 20 desyatin torpağı almağı xahiş etdi. Torpağın hər desyatininə görə iki min manat ödəməyə hazırdır. 300-ü cəhənnəmə, 1700x20=3400 manat. Bu gün torpaq sahibi məndən torpaq almağı xahiş edir. 34000...Zarafat deyil! Bu mazut oğurlayıb Bayıla «həbsxanaya» girmək deyil. Torpağın əldə edilmə üsulu da tamamilə qanunidir. İndi isə Moiseydən 10 min manat beh və iş bitsin (8,145).

Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanın kapitalist iqtisadiyyatının aparıcı sahəsi olan neft hasilatı artdıqca bu gəlirli sahə ilə məşğul olmaq istəyən daxili və xarici sahibkarların sayı da çoxalırdı. Neftli torpaqların qiyməti onu əldə etmək istəyənlərin sayı ilə düz mütənasib olaraq artırdı. Məsələn, 1877-ci ildə Zabratda güclü neft fontanı vurduqdan sonra burada hər desyatinin qiyməti min manatdan çox sürətlə artıb əvvəl-

cə, iyirmi dörd min manata, bir qədər sonra isə hətta qırx beş min manata çatmışdı. 1878-ci ildə Zabratda çoxlu neft şirkəti fəaliyyət göstərirdi (1,216).

XIX əsrin 70-ci illərində və 80-ci illərinin birinci yarısında Azərbaycan neft sənayesinin təşəkkülü prosesində Rusiya kapitalı həlledici rol oynamızdı. Əsas neft yataqlarını ələ keçirərək Rusiya sənayeciləri neft hasilatı (83,6%) və emalı sahələrində (65,5%) möhkəmlənmişdilər. Azərbaycan milli kapitalının neft çıxarmadan fərqli olaraq, emal sənayesində nisbətən möhkəm yer tutmasına baxmayaraq, rus və erməni sahibkarları bütövlüklə neft sənayesində daha güclü mövqelərə yiyələnmişdilər. XIX əsrin ikinci yarısında ümumi iqtisadi dəyişikliklər yolu tutmuş çar hökuməti neft sənayesində konkret fəaliyyət proqramı hazırlamadan köhnə iltizam sistemini ləğv etmişdi. Nizamlanmış bank sisteminin olmaması, yeni fəaliyyət sahəsində rusiya sənayeçilərinin kifayət qədər təcrübəyə malik olmamaları işlərin gedişinə öz mənfi təsirini göstərirdi. Bu amillər xarici kapitalın axını üçün əlverişli şərait yaradırdı.(5,44)

Bakıda neft emalı ilə məşğul olan zavodların sayı durmadan artırdı. Belə ki, 1890-cı ildə Bakı şəhərində 148 neft emalı zavodu vardı. 1873-cü ildə 833 min pud neft məhsulları istehsal edilmişdisə,1890-cı ildə Bakının emal müəssisələrində 68 milyon pud ağ neft, 4,5 milyon pud sürtkü yağları istehsal edilmişdi. Bakı şəhərinin Qara şəhər rayonu 1873-cü ildən salınmağa başlamışdı. Şəhərin bir çox neft emalı zavodları burada fəaliyyət göstərirdi (1, 223-225). Neft emalı sənaye istehsalının cəmləşdiyi qara şəhərdə neft oğurluğu ilə məşğul olan ayrı-ayrı quldur dəstələri fəaliyyət göstərirdi. Belə faktlara tarixi ədəbiyyatda rast gəlinməsə də, dövrün sosial-iqtisadi və siyasi hadisələrini real şəkildə əks etdirən ədəbiyyat xadimlərinin əsərlərində bu haqda məlumatlar vardır. Məsələn Nəcəf bəy Vəzirovun ««Pəhləvanani-zəmanə» əsərində Laçın bəyin Aslan bəyə söylədikləri Qaraşəhərdə neft oğurluğu faktlarını təsdiqləyir. Laçın bəy: Aslan təzə xəbəri eşitmisən? Karapeti 30 nəfərədək quldur dəstəsi ilə, hələ üstəlik Dövlətbazovu da mazut oğurluğu üstündə Bayıla (həbsxanaya) basıblar. Belə çıxır ki, bütün Qaraşəhər neft oğurluğu ilə məşğul olur. (8,141) Bu parçanın təhlili göstərir ki, rus hökumətinin, xarici kapitalistlərin Azərbaycanın sərvətlərini talan etməsi azmış kimi, Bakıdakı erməni quldur dəstəsi Qaraşəhərdəki emal müəsisələrindən neft oğurluğu ilə məşğul idi. Təbii ki, öz iqtisadi maraqlarını üstün tutan inzibati orqanlar həbslər keçirməklə bunun qarşısını almağa çalışırdılar. Hamının əlinə keçən hər şeyi oğurlamağa çalışdığı bir cəmiyyətdə belə tədbirlərin səmərəliliyi şübhə doğurur.

XIX əsrin 70-80-ci illərində Rusiyada çarizmin milli müstəmləkə siyasətinin nəticəsi idi ki, Bakı nefti rus, erməni və Avropa kapitalının inhisarı altına düşmüşdü. Azərbaycan xalqı isə özünün ən mühüm milli sərvətindən məhrum olmuşdu.

## *ƏDƏBİYYAT*

1.Azərbaycan tarixi. 3 cilddə, II c., B., 1964.
2.Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). B.,1996.
3.Azərbaycan tarixi. 7 cilddə, IV c., B., 2007.
4.İsmayılov M, İbrahimov M., Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi. B., 1991.
5.Mehdiyev Ə. Azərbaycan neft sənayesi XIX yüzilliyin son rübündə. B., 2000.
6.Məmmədxanlı X.Sığortanın tarixi inkişaf yolu. «İqtisadiyyat» qəzeti. 11-17 aprel 2003-cü il (xüsusi səhifə-23).
7.Səlimov Ş.D. Azərbaycan neft sənayesində torpaq münasibətləri (XIX-XX əsrin əvvəlləri). Namz.diss.avtoreferatı.B.,1998.
8.Vəzirov N. Seçilmiş əsərləri.B., 1991.
9.Касумова А.М. Кредитно-банковские учреждения Азербайджана (1874-1932). Namz. .diss. avtoreferatı. Б., 1969.

**Tarix və onun problemləri, №1 2010**

**СЕВДА ИСМАИЛОВА**

**ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ В ПРОИЗВЕДЕНИЯХ Н.ВЕЗИРОВА ПОЯВЛЯЮЩИХСЯ НОВЫХ ЭКОНОМИЧЕСКИХ ОСОБЕННОСТЕЙ В СВЯЗИ С РАЗВИТИЕМ КАПИТАЛИСТИЧЕСКИХ ОТНОШЕНИЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ**

В произведениях Наджаф бека Везирова нашли отражение исторические события II половины XIX века. Автор смог реально показать развитие капиталистических отношений, изменения в экономической и социальной жизни Азербайджана, экономическое обновление общества, формирование монопольной торговли, появление страховых обществ, разграбление национальных богатств, формирование национальной буржуазии и т.п. Все это дает возможность наполнить новым содержанием, а во многих случаях и обобщить научные исследования, связанные с проблемами социально-экономического развития Азербайджана.

**SEVDA ISMAYLOVA**

**IN THE WORK OF ARTISTIC N.VEZIROVA OF THE NEW CHARACTERISTICS IN THE ECONOMY OF THE NORTH AZERBAIJAN CARRIED OUT BY THE DEVELOPMENT OF CAPITALISTIC RELATIONS**

The valuable and rich information created by Necef bech Vezirovs work of Artistic helps us to have an entire vision of the situation in The North Azerbaijan in the second part of XIX century, the new, great and impressive events took part in economical and social life connected with the development of capitalistic relations, the creation of monopolistic trade, the growth of insurance in society, the store of natural resources, the origin of bourgeois and etc. From The point of historical analysis such kind information is necessary for completion and enrichment of historical base and scientific research.

***Rəyçilər: t.e.n. F.M.Əliyeva, t.e.d. A.C.İsgəndərov.***

***Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının 18 yanvar 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol№5).***